

# NAXÇIVAN:

## Araz üstü şəhərin heyranedici siması

**"Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir."**

Azərbaycanın dilbər guşələrindən olan Naxçıvan haqqında həmişə qürurla danışan ümummilli lider Heydər Əliyevin bu sözləri reallığa əsaslanır. Qədim, tarixi İpək yolunun üstündə yerləşən Naxçıvan Şərqdə tanınan iri ticarət mərkəzlərindən olmuşdur. Bu diyar, eyni zamanda Azərbaycan tarixinin salnaməsində özünəməxsus yeri və xidmətləri olan dahi şəxsiyyətləri ilə də fərqlənir.

Adı ölkəmizdən çox-çox uzaqlarda şöhrət tapmış belə dövlət xadimləri, siyasətçiləri, uzaqgörənliyi ilə tanınan müdrik şəxsiyyətlər haqqında söz düşəndə ilk növbədə ümummilli lider Heydər Əliyevin adı çəkilir. Canından artıq sevdiyi Azərbaycana rəhbərlik edən, gənc yaşlarından dövlət strukturlarında çalışmaqla zəngin təcrübə qazanan ulu öndər istər keçmiş sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi, sosial inkişafı naminə biri-birindən əhəmiyyətli addımlar atmışdır. Arzusu, amalı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş müstəqil, dünya birliyində tanınan bir dövlət kimi görmək idi. Ona görə də Naxçıvan MR Ali Məclisinin sədri işləyərkən ölkədə iqtidarda olan və Azərbaycanın parçalamasına yönəlmiş AXC-Müsavat cütlüyünü təmsil edən siyasətbazların mühüm tarixi-coğrafi və siyasi əhəmiyyəti olan "Naxçıvanın muxtariyyəti ləğv olunmalıdır" kimi xəyanətkar təkliflərini ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı təxribat adlandırırdı. Belə siyasi korları, sərsəm ideya müəlliflərini tutarlı cavablari ilə susduran ulu öndər atdığı mühüm addımları ilə bir daha onların siyasətdə naşı olduqlarını sübut etdi: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qorumalıyıq."

Muxtar respublikada məhz ulu öndərin rəhbərliyi ilə aparılan islahatlar sonradan daha böyük miqyasda, bütün Azərbaycanda tətbiq olundu. Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşadığı illərə nəzər saldıqda aydın görünür ki, bu gün haqqında ürək dolusu danışdığımız və ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artıran yeniliklərin, islahatların təməli o çətin illərdə qoyulub. Azərbaycanın gələcəyi üçün müəyyənləşdiyi perspektivlərin reallaşması isə 1993-cü ildən, Heydər Əliyev Bakıya döndükdən sonra başlanan böyük qayıdışla mümkün oldu. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi inkişaf strategiyasının 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi qazanılan uğurların miqyasını daha da genişləndirir. Ölkənin hərtərəfli inkişafında bölgələrin tərəqqisini mühüm amil kimi önə çəkən dövlət başçısı İlham Əliyevin atdığı addımlar ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Bu gün quruculuq meydançasını xatırladan Azərbaycanın hər bir bölgəsi, qəsəbəsi, kəndi inkişaf, tərəqqi dövrünü yaşayır. Təbii ki, bu uğurlar birgə səylərə, rayon rəhbərliyinin dövlət başçısı tərəfindən qarşıya qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirməsinə əsaslanır. Möhtərəm Prezidentimiz İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inrkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransında bildirmişdir ki, hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir: "Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət."

Bu gün inkişaf, tərəqqi dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovun da xidmətləri böyükdür. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən Vasif Talıbov da onun yanında çalışmışdı. Heydər Əliyev hələ o vaxt Vasif Talıbovun işgüzarlığına, təşəbbüskarlığına yüksək qiymət verərək bildirmişdir: "Vasif Talıbovdan gələcəkdə yaxşı rəhbər və təşkilatçı çıxacaqdır." Doğrudan da Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən dahi şəxsiyyətin ona olan etimadını doğrultmuş, uğurlu fəaliyyəti ilə Naxçıvanı çiçəklənən, günbəgün inkişaf edən diyara çevirmişdir. Etimad böyük qüvvədir, misilsiz kapitaldır. Vasif Talıbov bildirir: "Adamlardan aldığım məsləhətlər, tövsiyələr, xəbərdarlıqlardan daha qiymətli nə ola bilər? Onlarla ünsiyyətdə biz yeni təfəkkürün imkanlarını yoxlayırıq. Bu ünsiyyətdə aşkar fikir yaxınlığı və uyğunluğu göstərir ki, bizim yeni münasibətlərimiz, axtarışlarımız düz xətt üzrə hərəkət edir."



Məşhur fransız yazıçısı Antuan Sent Ekzüperinin ifadəsi ilə desək, dünyanın ən qiymətli daş-qaşı insanlarla ünsiyyətdə olmaqdır. Adamlarla bu cür ünsiyyət öz bəhrəsini verməkdədir. Vasif Talıbov mühüm qərarlar verməyə qadir olan, cəsarətlə irəli gedə bilən, müvəffəqiyyət qazanmağı bacaran, təşəbbüskar, düşüncəli, bacarıqlı bir şəxsiyyətdir. O, xalq işinə, dövlət işinə hədsiz sədaqəti ilə seçilir.

Onun Heydər Əliyev irsinə daha dolğun, daha hərtərəfli, daha ciddi bələd olması onu da irəli aparır.

Sosial-iqtisadi dəyişikliklər yolu ilə irəliləyən Naxçıvan Muxtar Respublikası məhz Naxçıvan Ali Məclisinin Sədrinin rəhbərliyi, işgüzarlığı sayəsində təsərrüfatın və mədəni quruculuğun bütün sahələrində böyük nailiyyətlər əldə etmişdir. Onun rəhbərliyi ilə görülən işləri, həyata keçirilən quruculuq, adadlıq tədbirlərini sadalamaqla bitməz.

Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri vəzifəsinə başlayarkən ilk cümləsi bu oldu: "Mən Naxçıvan şəhərini Azərbaycanın ən gözəl şəhərlərindən biri edəcəyəm." Bu günün reallıqları qeyd olunan fikrin təsdiqidir. Sözlə əməl birliyinin fonunda Naxçıvan günbəgün inkişaf edir. Muxtar Respublikanın qədimliklə müasirliyi özündə birləşdirməsi aparılan uğurlu siyasətin nəticəsidir.

Blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə ildən-ilə inkişaf edib böyüyür, gözəlləşir. Yeni istehsalat sahələri, məktəblər, xəstəxanalar tikilib istifadəyə verilir. Ölkə başçısı İlham Əliyev muxtar respublikaya səfəri zamanı gedən inkişafı yüksək qiymətləndirərək bildirmişdir: "Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq, abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri-bütün bunlar məni sevindirir. Bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar *ölkəmizin hərtərəfli inkişafına öz* töhfələrini verirlər." Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyir: "Naxçıvan Muxtar Respublikasında inkişafın bir səbəbi var: bu, böyük yaradıcı gücə malik Heydər Əliyev ideyalarının, Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsidir."

Hal-hazırda dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı, Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanda quruculuq və abadlıq işləri daha da geniş vüsət alıb. Muxtar respublikanın hansı guşəsinə getsək orada abadlıq, quruculuq işlərinin şahidi olarıq.

Naxçıvan duz mədənində görülən işlər də fərəhləndiricidir. Burada duz çıxarılması ilə yanaşı xəstələr müalicə olunur. Lakin əvvəllər xəstəxanada xidmətin səviyyəsi yaxşı vəziyyətdə deyildi. Xəstəxananın müasir standartlara cavab verən səviyyəyə qaldırılmasında Vasif Talıbovun rolu əvəzsizdir. Onun rəhbərliyi ilə bu şəfa ocağında fizioterapiya şöbəsi yaradıldı. İndi burada ağciyər, bronxial astma, xroniki bronxit, yoluxucu allergiya tam müalicə olunur. İndi bura Türkiyədən, İrandan, Gürcüstandan, Azərbaycanın rayonlarından, Rusiyadan və digər yerlərdən müalicə olunmaq üçün gələnlər çoxdur.

Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbovun həyata keçirdiyi quruculuq işlərindən biri də xalqımızın ziyarətgah yeri olan "Əshabi Kəhf"-dir. Burada həm ziyarətə gələnlər, həm də turistlər üçün çox gözəl şərait yaradılıb.

Sözsüz ki, hər sahədə geniş vüsət alan inkişafı, görülən işləri bir yazıda qeyd etmək mümkün deyil. Görülən işlər, uğurlu addımlar davamlılığı ilə diqqət çəkir. Bütün bu səylərin əsasında isə ancaq və ancaq bir məqsəd dayanır-Azərbaycanımızın hərtərəfli inkişafına, qüdrətlənməsinə, möhkəmlənməsinə töhfə vermək.

Arif Sadıqov